Funded by the European Union and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE / CONSEIL DE L'EUROPE

Implemented by the Council of Europe

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı 2019-2022-ci illər (YİT - II)

## Regional Layihə: Şərq Tərəfdaşlığı ölkələrində ayrıseçkilik, nifrət əsaslı cinayətlər və nifrət əsaslı nitq qurbanlarının məhkəmədənkənar müdafiə mexanizmləri vasitəsilə ədalət mühakiməsinə çıxışı imkanlarının artırılması

### Məqsəd nədir?

- Şərq Tərəfdaşlığı ölkələrində ayrıseçkilik, nifrət əsaslı cinayətlər və nifrət əsaslı nitq qurbanlarının məhkəmədənkənar müdafiə mexanizmləri vasitəsilə ədalət mühakiməsinə çıxışı imkanlarının artırılması

### Layihədən kim faydalanır?

- Ümumi ictimaiyyət və ayrıseçkilik, nifrət əsaslı cinayətlər və nifrət əsaslı nitqlərin qurbanları məhkəmədənkənar müdafiə mexanizmləri vasitəsilə öz hüquqlarının daha çox müdafiəsindən faydalanacaq.
- bərabərlik məsələləri üzrə işləyən orqanlar və / və ya Ombudsman Aparatları.
- Ayrıseçkilik, nifrət əsaslı cinayətlərə və nifrət əsaslı nitqlərə məruz qalmış həssas icmalarla işləyən / onları təmsil edən vətəndaş cəmiyyəti təşkilatları.
- Ədliyyə nazirlikləri, daxili işlər nazirlikləri, məhkəmə və hüquq-mühafizə orqanları.

### Layihə necə işləyir?

- Milli tərəfdaşlarla sıx əməkdaşlıq şəraitində.
- Həmkarların yaxşı təcrübələrdən öyrənməsini dəstəkləmək və regional şəbəkələnmə və ümumi həll yollarını artırmaq məqsədilə regional fəaliyyətlərlə
- Ölkənin konkret ehtiyaclarını ödəmək üçün xüsusi işlənib hazırlanmış yanaşma ilə.
- O, YİT I Mərhələ (2015-2018-ci illər) çərçivəsində ayrıseçkiliklə mübarizə sahəsində əməkdaşlığın nəticələri üzərində qurulub.

### Nələrə nail olmağı gözləyirik?

- Ayrıseçkiliyə, nifrət əsaslı cinayətlərə və nifrət əsaslı nitqlərə qarşı mübarizə haqqında qanunvericilik Avropa insan hüquqları standartlarına uyğun olaraq təkmilləşdirilir və tətbiq olunur.
- ► Nifrət əsaslı cinayətlərə dair təfsilatlı məlumatların toplanması üçün prosedurlar və vasitələr daha da gücləndirilir.
- Bərabərlik məsələləri üzrə işləyən orqanların/Ombudsman Aparatlarının və QHT-lərin həssas qruplardan olan kişilərə və qadınlara ayrıseçkiliklə bağlı şikayətlərini müvafiq məhkəmədənkənar müdafiə mexanizmləri vasitəsilə araşdırmaqda kömək etmək potensialı artır.
- Həssas qruplardan olan qadınlar və kişilər, ümumi ictimaiyyət və QHT-lər arasında "bərabərlik

məsələləri üzrə orqanlar"/ Ombudsman Aparatının və məhkəmədənkənar müdafiə mexanizmlərinin işi barədə məlumatlılıq.

## Layihənin büdcəsi nə qədərdir?

- Ümumi büdcə 1,714,000 avro təşkil edir.
- 80%-i Avropa İttifaqı, 20%-i isə Avropa Şurası tərəfindən maliyyələşdirilr. Proqram Avropa Şurası tərəfindən həyata keçirilir.

## Layihənin müddəti nə qədərdir?

- Layihə 1 fevral 2019-cu ildən 31 avqust 2022-ci ilə qədər davam edəcəkdir.

## Əlavə məlumatı necə əldə etmək olar?

- Avropa Şurasının Ayrıseçkiliyə Qarşı Mübarizə İdarəsi yanında (Demokratiya Baş Direktorluğu) Nifrət əsaslı nitqlərə qarşı mübarizə və əməkdaşlıq şöbəsi

## Əlaqə Məlumatı

Strasburqdakı Layihə komandası:
- Stefano Valenti, Şöbə rəhbəri, stefano.valenti@coe.int
- Angela Longo, Layihə rəhbəri angela.longo@coe.int

*Bu, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində (II mərhələ, həmçinin YİT - II adlandırılır) həyata keçirilən, Şərq Tərəfdaşlığı ölkələrini əhatə edən (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus[1]) regional layihədir.*

*2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası, Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri olan Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus ilə məqsədyönlü əməkdaşlıq fəaliyyətlərinin Yaxşı İdarəçilik naminə Tərəfdaşlıq proqramı çərçivəsində həyata keçiriləcəyi barədə razılığa gəldilər. Proqramın I mərhələsi (I YİT - I) 2015-ci ildə başlamış və 2018-ci ildə başa çatmışdır; proqramın ikinci mərhələsi (YİT - II) 2019-cu ildə başlamış və 2022-ci ilə qədər davam edəcəkdir.*

*Bu əməkdaşlıq fəaliyyətlərinin məqsədi, Belarus istisna olmaqla, Avropa Şurasının üzvü olan Şərq Tərəfdaşlığı ölkələrini insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində Avropa standartlarına yaxınlaşdırmaq üçün onların daxili islahatları həyata keçirmək potensialını artırmaqdır.*

---

[1] *Belarusdakı siyasi vəziyyətə görə, bu ölkə ilə əməkdaşlıq fəaliyyətləri dayandırılır və Avropa İttifaqı tərəfindən verilən məhdudlaşdırıcı tədbirlərə uyğun olaraq, YİT II-nin qalan icra müddəti üçün hələlik yeni tədbirlər planlaşdırılmır.*